## Oğuz Ayvazın ilk kitabı çap olundu




*Gənc şair Oğuz Ayvazın "Adını pıçıldadığım" adlı yeni şeirlər kitabı işıq üzü görüb.*

*Adalet.az xəbər verir ki, "Azərnəşr"də çap olunan kitabda şairin son illər yazdığı şeirlər toplanıb.*

*Xatırladaq ki, bu müəllifin ilk kitabıdır.*

## Akademik Musiqili Teatrı beynəlxalq festivalda

*Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Türkiyədə iyulun 22-28-də keçiriləcək 25-ci Bayburt Dədə Qorqud Beynəlxalq Mədəniyyət və Sənət Festivalına dəvət alıb. Teatrdan bildiriblər ki, hər il dünyanın bir çox ölkələrinin, xüsusilə türkdilli dövlətlərin tanınmış və məşhur incəsənət xadimlərinin qatıldığı bu festival Türkiyənin qədim Bayburt şəhərində təşkil olunacaq. Fərziyyələrə görə, ulu Dədə Qorqudun məzarı məhz bu şəhərdədir.*

*Dövlət Akademik Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev bildirib ki, 1995-ci ildə əsası qoyulan bu mötəbər tədbir hər il böyük bayram şənliyi kimi qeyd olunur.*

*Musiqili Teatrın balet truppasının bu festivala artıq ikinci dəfə dəvət olunmasının onlarda böyük sevinc hissi doğurduğunu bildirən Ə.Lalayev deyib : "2008-ci ildə teatrımızın balet truppası ölkəmizi uğurla təmsil edib. Dədə Qorqudun bütün dünyada daha geniş miqyasda tanıdılması, türk mədəniyyətinin təbliği, xalqlar arasında sülhün və qardaşlığın möhkəmlənməsi və inkişafı məqsədilə təşkil olunan festival çox rəngarəng və zəngin proqrama malikdir. Festival çərçivəsində müxtəlif tədbirlər - sərgilər, məşhur dramaturqlarla, şairlərlə görüşlər, konfranslar, şeir gecələri keçiriləcək.*

*Tədbir iştirakçılarının Dədə Qorqudun Masat kəndindəki məzarını da ziyarət edəcəklərini vurğulayan teatrın direktoru bildirib: "Bu festival tariximizi, mədəniyyətimizi öyrənmək baxımından gənclər üçün çox maraqlı və əhəmiyyətlidir. İnanıram ki, 25-ci Bayburt Dədə Qorqud Beynəlxalq Mədəniyyət və Sənət Festivalında ölkəmizi layiqincə təmsil edəcəyik".*